AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ

# AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS SCIENTIFIC REVIEWS

**ELMİ, RESENZİYALI, RÜBLÜK/ SCIENTIFIC, REFEREED, QUARTERLY**

**İl: 1, Cild 1, Yanvar - Mart 2013**
**Year 1, Volume 1, January-March 2013**

**ISSN 2306-8426**

**Baş redaktor:**
**prof., i.e.d. Ş.H.Hacıyev**

**Redaktor:**
**prof., i.e.d. Ə.İ.Bayramov**

**Məsul katib:**
**dos., i.e.n. N.Ö.Hacıyev**

**Redaksiya heyəti:**
**prof., i.e.d. M.M.Sadıqov**
**prof., i.e.d. A.Ş.Şəkərəliyev**
**prof., i.e.d. T.Ə.Hüseynov**
**prof., i.e.d. Ə.Q.Əlirzayev**
**prof., i.e.d. Q.N.Manafov**
**prof., i.e.d. Ə.P.Babayev**
**prof., i.e.d. M.X.Meybullayev**
**prof., i.e.d. S.M.Yaqubov**
**prof., i.e.d. M.A.Əhmədov**
**prof., i.e.d. S.M.Səbzəliyev**
**prof., i.e.d. M.X.Həsənli**
**prof., i.e.d. F.P.Rəhmanov**
**i.e.d. Y.A.Kəlbiyev**

MÜNDƏRİCAT / CONTENTS

Raffi və onun Qarabağ haqqında mifik məlumatları.................Z.Ə. Hacıyeva
Azərbaycanda qiymətli kağızlar bazarının müasir vəziyyəti və onun inkişaf problemləri .............................................M.M.Mahmudov, N.R.Quliyev
Makroiqtisadi siyasətin investisiya fəallığına təsiri: nəzəri və praktiki aspektlər..............................................................................B.S. Əhmədov
World economy development problems:technology and global competition ...................................................................................A.A.Guliyeva
Azərbaycan Respublikasının sosial müavinət və təqaüd təminatı sistemi ................................................................................................R.A. Hüseynov
Концептуальные основы теории управления человеческими ресурсами ..........................................................................................А.А. Неманзаде
Conjoint analysis of SPA services in Bulgaria.......................Tsveta Karadzhova
Bases of entrepreneurship activity in modern tourism.................A. N.Hasanov
Bilik iqtisadiyyatının inkişaf mərhələlərində innovasiya texnologiyalarının nəzəri-metodoloji aspektləri........................A.D. Hüseynova, O.İ.Mazanova
Особенности формирования системы стратегического управленческого учета ...........................................................................................М.Джавадова
Təbii inhisar subyektləri (elektroenergetika) üzrə qiymət və tariflərin tənzimlənməsinin nəzəri aspektləri..................................................Q.S.Hüseynov
The development of regional education market in the formation of state-public education management system...............................................Polishchuk E.
Paradigm of the new political economy...............................Tyshchenko M. P.
Аналитическое обеспечение кредитного менеджмента субъектов хозяйствования.....................................................................Б.В.Павлова
Davamlı inkişafın bəzi sosial-iqtisadi parametrləri.................. H.Ö.Hüseynov
İqtisadi sistemə nəzəri və praktiki baxış......................................V.Ə.Həziyev
Maşınqayırma müəssisələrinin istehsal potensialının dövlət tərəfindən stimullaşdırılması .............................................................................Ə.A.Hüseynov
Milli iqtisadiyyatın davamlı inkişaf strategiyasının reallaşmasında xarici iqtisadi siyasətin əsas istiqamətləri..........................................................E.Mirzəyev
Yerli sosial-iqtisadi problemlərin həllində rayon bələdiyyələrinin iştirakını məhdudlaşdıran maliyyə amili...............................................S.D.Məmmədov
Основные направления антикризисного управления предприятием в реальном секторе экономики .............................................Р.В. Абдуллаев
Роль и значение использования системы управления рисками в деятельности таможенных органов....................................Л.М.Гусейнова
Dünya təcrübəsində regional sosial-iqtisadi inkişafın maliyyə mexanizmi.......................................................................................N.S.Babayev
Aqrar sektorun inkişafında qiymət amili.....................................E.C.Abdullayeva

www.aseu.gov.az

| Elmi, Resenziyalı, Rüblük | |
|---|---|
| İl 1, Cild 1, Yanvar-Mart 2013 | |
| www.aseu.gov.az<br>www.scientificreviews.az | ISSN 2306-8426 |
| Nəşr edən təşkilat: | Azərbaycan Dövlət İqtisad Unversiteti |
| Baş redaktor: | i.e.d., prof. Ş.H.Hacıyev |
| Redaktor: | i.e.d., prof. Ə.İ.Bayramov |
| Jurnalin adı: | Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri |
| Jurnalın növü: | Dövri |
| Dövrülüyü və Dil: | Rüblük, Azərbaycan, İngilis, Rus |
| Hüquqi ünvanı: | AZ 1001, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı,<br>Tel: (+994 12) 4926817; 4926411<br>Fax: (+994) 4 92 59 40 |
| Mətbəə: | AZ 1001, Bakı, Azərbaycan Respublikası, İstiqlaliyyət 6, otaq 30,<br>Tel:(+994 12) 4 92 53 37<br>Fax: (+994) 4 92 65 09 |
| Çap yeri və tarixi: | Bakı, Azərbaycan Respublikası, 20.04.2013 |

| Redaksiya Heyəti | |
|---|---|
| i.e.d., prof.  M.M.Sadıqov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. A.Ş.Şəkərəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. T.Ə.Hüseynov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof.  Ə.Q.Əlirzayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Q.N.Manafov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof.  Ə.P.Babayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof.  M.X.Meybullayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Yaqubov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof.  M.A.Əhmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Səbzəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. M.X.Həsənli | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. F.P.Rəhmanov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d.Y.A.Kəlbiyev | Azərbaycan Dövlət İqtisad Universiteti |

| RESENZENTLƏR | |
|---|---|
| i.e.d., prof. A.Ş.Şəkərəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Q.N.Manafov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof.  M.X.Meybullayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Yaqubov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof.  M.A.Əhmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Səbzəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. M.X.Həsənli | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. F.P.Rəhmanov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d.Y.A.Kəlbiyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| | |

## MÜNDƏRİCAT - CONTENTS


| | səh. |
|---|---|
| Raffi və onun Qarabağ haqqında mifik məlumatları...............Z.Ə. Hacıyeva | 5 |
| Azərbaycanda qiymətli kağızlar bazarının müasir vəziyyəti və onun inkişaf problemləri ............................................. M.M.Mahmudov, N.R.Quliyev | 16 |
| Makroiqtisadi siyasətin investisiya fəallığıina təsiri: nəzəri və praktiki aspektlər..........................................................................B.S. Əhmədov | 31 |
| World economy development problems:technology and global competition ................. ....................................................... Aida Aydın gızı Guliyeva | 44 |
| Azərbaycan Respublikasının sosial müavinət və təqaüd təminatı sistemi...... .................. ....................................................................R.A. Hüseynov | 57 |
| Концептуальные основы теории управления человеческими ресурсами …..…..........……………………………..А.А. Исмаилзаде | 76 |
| Conjoint analysis of SPA services in Bulgaria…………………………….. .. …… …………………………………………..………Tsveta Karadzhova | 85 |
| Bases of entrepreneurship activity in modern tourism...... ......A. N.Hasanov | 91 |
| Bilik iqtisadiyyatının inkişaf mərlələrində innovasiya texnologiyalarının nəzəri-metodoloji aspektləri......................A.D. Hüseynova, O.İ..Mazanova | 105 |
| Особенности формирования системы стратегического управленческого учета …………………………………………..............…М.Джавадова | 113 |
| Təbii inhisar subyektləri (elektroenergetika) üzrə qiymət və tariflərin tənzimlənməsinin nəzəri aspektləri........................................Q.S.Hüseynov | 124 |
| The development of regional education market in the formation of state-public education management system……..……………………Polishchuk E. | 140 |
| Paradigm of the new political economy...........................Tyshchenko M. P. | 149 |
| Аналитическое обеспечение кредитного менеджмента субъектов хозяйствования…………………………...Белякова Виктория Павловна | 156 |
| Davamlı inkişafın bəzi sosial-iqtisadi parametrləri................ H.Ə.Hüseynov | 169 |
| İqtisadi sistemə nəzəri və praktiki baxiş..................................V.Ə.Həziyev | 183 |
| Maşınqayırma müəssisələrinin istehsal potensialının dövlət tərəfindən stimullaşdırılması................................................................Ə.A.Hüseynov | 193 |
| Milli iqtisadiyyatın davamlı inkişaf strategiyasının reallaşmasında xarici iqtisadi siyasətin əsas istiqamətləri............................................E.Mirzəyev | 205 |
| Yerli sosial-iqtisadi problemlərin həllində rayon bələdiyyələrinin iştirakını məhdudlaşdıran maliyyə amili...........................................S.D.Məmmədov | 215 |
| Основные направления антикризисного управления предприятием в реальном секторе экономики…..........……………………Р.В.Абдуллаев | 225 |
| Роль и значение использования системы управления рисками в деятельности таможенных органов..............................…Л.М.Гусейнова | 234 |
| Dünya təcrübəsində regional sosial-iqtisadi inkişafın maliyyə mexanizmi.........................................................................N.S.Babayev | 244 |
| Aqrar sektorun inkişafında qiymət amili............................E.C.Abdullayeva | 253 |

| | |
|---|---|
| **Scientific, Refereed, Quarterly** | |
| **Azerbaijan State University of Economics** | |
| **Year 1, Volume 1, January-March 2013** | |
| **www.aseu.gov.az**<br>**www.scientificreviews.az** | **ISSN 2306-8426** |
| **Publisher:** | **Azerbaijan State University of Economics** |
| **Editor-in-chief:** | **prof., Dr. Sh.H.Hajiyev** |
| **Editor:** | **prof., Dr. A.I.Bayramov** |
| **Managing Editor:** | **associate prof., PhD, N.U.Hajiyev** |
| **Title Juornal:** | **Scientific Reviews in Azerbaijan State University of Economics** |
| **Type of Journal:** | **Periodical** |
| **Time Period and Language:** | **Quarterly, Azerbaijani, English Russian** |
| **Directorial Address:** | **AZ 1001, Baku, Azerbaijan Republic,**<br>**Istiglaliyyat st. 6, room 414,**<br>**Tel:(+994 12) 4926817; 4926411**<br>**Fax: (+994) 4 92 59 40** |
| **Printing House:** | **AZ 1001, Baku, Azerbaijan Republic,**<br>**Istiglaliyyat st. 6, room 30,**<br>**Tel:(+994 12) 4 92 53 37**<br>**Fax: (+994) 4 92 65 09** |
| **Place and Date of Print:** | **Baku, Azerbaijan Republic, 20.04.2013** |

| Editorial Board | |
|---|---|
| prof., Dr. M.M.Sadigov | Azerbaijan State University of Economics |
| prof., Dr. A.Sh.Shakaraliyev | Azerbaijan State University of Economics |
| prof., Dr. T.A.Huseynov | Azerbaijan State University of Economics |
| prof., Dr. A.G.Alirzayev | Azerbaijan State University of Economics |
| prof., Dr. G.N.Manafov | Azerbaijan State University of Economics |
| prof., Dr. A.P. Babayev | Azerbaijan State University of Economics |
| prof., Dr. M.Kh.Meybullayev | Azerbaijan State University of Economics |
| prof., Dr. S.M.Yagubov | Azerbaijan State University of Economics |
| prof.,Dr. M.A.Ahmadov | Azerbaijan State University of Economics |
| prof., Dr. S.M.Sabzaliyev | Azerbaijan State University of Economics |
| prof., Dr. M.Kh.Hasanli | Azerbaijan State University of Economics |
| prof., Dr. F.P.Rahmanov | Azerbaijan State University of Economics |
| Dr.Y.A.Kalbiyev | Azerbaijan State University of Economics |
| **Referees of This Issue** | |
| prof., Dr. A.Sh.Shakaraliyev | Azerbaijan State University of Economics |
| prof., Dr. G.N.Manafov | Azerbaijan State University of Economics |
| prof., Dr. M.Kh.Meybullayev | Azerbaijan State University of Economics |
| prof., Dr. S.M.Yagubov | Azerbaijan State University of Economics |
| prof.,Dr. M.A.Ahmadov | Azerbaijan State University of Economics |
| prof., Dr. S.M.Sabzaliyev | Azerbaijan State University of Economics |
| prof., Dr. M.Kh.Hasanli | Azerbaijan State University of Economics |
| prof., Dr. F.P.Rahmanov | Azerbaijan State University of Economics |
| Dr.Y.A.Kalbiyev | Azerbaijan State University of Economics |

# RAFFİ VƏ ONUN QARABAĞ HAQQINDA MİFİK MƏLUMATLARI

**Z.Ə.Hacıyeva**

Azərbaycan MEA Rəyasət Heyətinin Mərkəzi Aparatı
AZ 1001, Bakı, İstiqlalıyyət, 10
E-mail: haciyeva_z@mail.ru

Məqalə redaksiyaya daxil olmuşdur 8 Fevral 2013; Çapa qəbul edilmişdir 25 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 8 February 2013; accepted 25 March 2013; published online 2 May 2013

## Xülasə

Məqalə Qarabağ xanlığının tarixşünaslığına həsr edilmiş, burada Raffinin "Xəmsə məlikləri" əsəri araşdırılmış və faktlarla mənbələrin həqiqətən mifik təhrifi aşkar edilmişdir.

Əsərdə İbrahimxəlil xana qarşı olan dərin nifrət sezilir, həmçinin müəllif İbrahixəlil xanın acizliyini inadkarlıqla sübut etməyə cəhd edir. O, Zubovun yürüşünü təqdir edir və əzəli Azərbaycan torpaqlarını erməni torpağı kimi qələmə verir.

**Açar sözlər:** Dağlıq Qarabağ, tarixşünaslıq, saxtakarlıq

**JEL Classification Codes:** B10; B31

# AZƏRBAYCANDA QİYMƏTLİ KAĞIZLAR BAZARININ MÜASİR VƏZİYYƏTİ VƏ ONUN İNKİŞAF PROBLEMLƏRİ

**dos. Mahmudov M.M. ADİU**
**dos. Quliyev N.R. ADİU**

Məqalə redaksiyaya daxil olmuşdur 9 Fevral 2013; Çapa qəbul edilmişdir 27 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 9 February 2013; accepted 27 March 2013; published online 2 May 2013

## Xülasə

**Bu tətqiqatın əsas məqsədi** - Azərbaycanda qiymətli kağızlar bazarının müasir vəziyyəti və inkişaf problemlərinin öyrənməkdən ibarətdir. **Tətqiqat işi** - statistik təhlil və analitik ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir.**Tətqiqatın nəticəsi:** aparılan araşdırmanın nəticəsi olaraq qiymətli kağızlar bazarının hazırkı vəziyyəti qiymətləndirilmiş; xüsusilə qiymətli kağızlar bazarı fəaliyyətini kapital bazarlarından maliyyələşmə templərinin artımı və inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması siyasəti nəzərə alınmış; qiymətli kağızlar bazarının formalaşması və inkişafına təsir edən amillər təhlil edilmiş və bunlar əasaında analitik ümumiləşdirilmişdir. **Tətqiqatın məhdudiyyətləri**-daha geniş praktiki informasiya tələbidir. **Tətqiqatın praktiki əhəmiyyəti** – qiymətli kağızlar bazarı fəaliyyətinin effektiv həyata keçirilməsi üçün zəruri olan sağlam rəqabət mühitinin yaradılması va inkişaf etdirilməsi istiqamətində elmi araşdırma aparan mütəxəssislərin, habelə bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşdirilməkdən ibarətdir. **Tətqiqatın orijinallığı və elmi yeniliyi ondan ibarətdir ki,** tədqiqat işində Mərkəzi Bankın hesabatlarından və elmi tətqiqatlardan istifadə edilərək, əməli təhlillər aparılmış və nəticə olaraq, qiymətli kağızlar bazarının fəaliyyətinin dinamikliyi və mobilliyinin artırılması məqsədilə tövsiyələr verilmişdir.

**Açar sözlər:** qiymətli kağızlar bazarı, daxili investisiyalar, xarici portfel investisiyaları, dövlət istiqrazları

**JEL Classification Codes:** O16

# MAKROİQTİSADİ SİYASƏTİN İNVESTİSİYA FƏALLIĞINA TƏSİRİ: NƏZƏRİ VƏ PRAKTİKİ ASPEKTLƏR

**Bağış Sabir oğlu Əhmədov**

i.e.n. İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutu, ADİU
E-mail: bahmadov@gmail.com
Mobil tel: (+994 55) 241 36 00

Məqalə redaksiyaya daxil olmuşdur 15 Yanvar 2013; Çapa qəbul edilmişdir 18 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 15 January 2013; accepted 18 March 2013; published online 2 May 2013

## Xülasə

Məqalədə makroiqtisadi siyasətin investisiya fəaliyyətinə təsirinin nəzəri və praktiki aspektləri araşdırılmışdır. Belə ki, dövlətin fiskal, monetar və valyuta siyasəti investisiya qoyuluşlarının səmərəliliyinə və bu qoyuluşlarının maliyyələşdirilməsi üçün cəlb edilən vəsaitlərin qiymətlərinə təsir göstərir. Bu zaman investisiya fəallığına təsir göstərən əsas makroiqtisadi parametrlərdən biri faiz dərəcəsidir. Faiz dərəcəsinin səviiyəsi həm investisiya xərclərinə, həm də istehlak xərclərinə təsir göstərən əsas amillərdən biridir. Aparılmış təhlil göstərir ki, ölkədə faiz dərəcəsi yüksək olaraq qalır və bu amil də xarici rəqiblərlə müqayisədə yerli istehsal subyektlərinin rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Həmçinin ölkədə manatın real effektiv məzənnəsinin möhkəmlənməsi, inflyasiya səviyyəsinin dəyişkənliyi investisiya fəallığna mənfi təsir göstərən amillərdən olmuşlar. Ölkədə yüksək inflyasiya firmaların amortizasiya ayırmalarının real dəyərinin azalmasın və mənfəət normalarının artımına səbəb olur ki, bu da vergi ödənişlərinin yüksəkldir. Bu amillər isə dicər şərtlər sabit qaldıqda, qiymətlərin artımı və investisiya fəallığının aşağı düşməsinə səbəb olur. Bununla yanaşı, son illərdə neft gəlirləri hesabına dövlət büdcəsinin xərclərinin artımının investisiya fəallığında əsas rol oynadığı müəyyən edilmişdir. Məqalədə ölkədə faiz dərəcələrinin azaldılması imkanlarının böyük olduğu və faiz dərəcəsinin aşağı salınmasının makroiqtisadi siyasətin əsas hədəflərindən biri kimi qəbul edilməsinin zəruri olduğu əsaslandırılmışdır.

**Açar sözlər:** makroiqtisadi siyasət, investisiya fəallığı, faiz dərəcələri, infilyasiya

**JEL Classification Codes:** E63; D92; O16

# DÜNYA İQTİSADİYYATININ İNKİŞAF PROBLEMLƏRİ: QLOBAL RƏQABƏT VƏ TEXNOLOGİYALAR

**Quliyeva Aida Aydın qızı**

dosent, i.e.n. ADİU
E-mail: guliyevaaaida@ymail.com
Məqalə redaksiyaya daxil olmuşdur 11 yanvar 2013; Çapa qəbul edilmişdir 19 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 11 January 2013; accepted 19 March 2013; published online 2 May 2013

## Xülasə

**Tədqiqatın əsas məqsədi** - müasir dövrdə dünyanı əhatə edən həm iqtisadi, həm də siyasi böhran şəraitində dünya iqtisadiyyatının inkişaf probleminin texnologiyalarla qlobal rəqabətin əlaqəsi ilə qarşılıqlı təsiri şəraitində təhlil etməkdir. Tədqiqat işində müəllif texnologiyalrın global rəqabətə necə təsir etməsi və bunun informasiya iqtisadiyyatı şəraitində necə baş verməsi əsas götürərək müasir iqtisadi vəziyyəti təhlil etməyə cəhd göstərmişdir. **Tədqiqat işinin nəticəsi** - global rəqabətin sivilizasiyaların rəqabəti kimi götürərək dünya iqtisadiyyatında baş verən böhran proseslərinin bu qədər davamlı olmasının səbəblərindən biri kimi; hansısa bir sivilizasiyada müvəffəqiyyətli olan texnologiyaların digər ölkələrdə kifayət qədər müvəffəqiyyətli olmamasının aşkar olması; dünyada mövcud olan rəqəmsal uçurum; high hume texnologiyalara keçidin mükəmməl olmaması; ən nəhayət yuxarıda göstərilən faktorların dünyanın rəqabət gücünün zəifləməsi və sonda böhranı dərinləşdirilməsidir. **Tədqiqatın yeniliyi**: iqtisadi inkişaf üçün çox güclü amil olan global texnologiyaların eks-neqativ təsirlərinin araşdırılmasıdır. **Tədqiqatın praktiki əhəmiyyəti**: dünya iqtisadiyyatının inkişaf problemlərinə yeni "sol" tərəfdən yanaşma bu istiqamətdə yeni tədqiqatların yaranmasına maraq yaradır və tədqiqatçıları bu yönümdə işləməyə həfəsləndirər. Ona görə material magistr tələbəlıri və dissertantlar və ümumiyyətlə bu sahəni tədqiq edənlər üçün praktiki əhəmiyyət kəsb edə bilər.

**Açar sözlər:** qlobal rəqabət, texnologiya, informasiya iqtisadiyyatı, rəqəmsal uçrum.

**JEL Classification Codes: D43; O 33.**

# AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL MÜAVİNƏT VƏ TƏQAÜD TƏMİNATI SİSTEMİ

**Rəşad Aktiv oğlu Hüseynov**

i.f.d., İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu, ADİU
E-mail: rashadhuseynov@rambler.ru
Mobil tel: (+994 50) 445 35 17

Məqalə redaksiyaya daxil olmuşdur 14 Yanvar 2013; Çapa qəbul edilmişdir 23 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 14 January 2013; accepted 23 March 2013; published online 2 May 2013

## Xülasə

Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında sosial müavinət və təqaüd təminatının formalaşması və inkişafı istiqamətində son illərdə baş verən proseslərin araşdırılması, mövcud vəziyyətin təhlil edilməsi, bu sistemin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr verməkdən ibarətdir. Tətqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi olaraq respublikamızda tətbiq edilən sosial müavinətlərin və təqaüdlərin təsnifatı verilmiş, onların sxematik sistemləşdirilməsi aparılmış, ayrı-ayrı növləri, məbləğləri təhlil edilmiş, müavinət və təqaüdlərlə bağlı qanunvericilik bazası ətraflı araşdırılmış, bunun əsasında toplanmış məlumatlar sistemləşdirilmiş və bu sistemin fəaliyyətilə bağlı bəzi ziddiyyətli məqamlar da qeyd edilmişdir. Tətqiqatın məhdudiyyətləri: daha geniş praktik informasiya tələb edir. Tətqiqatın praktik əhəmiyyəti: sosial sahədə tədqiqatlar aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərinin zənginləşdirilməsində müsbət rol oynaya bilər.

**Açar sözlər:** sosial təminat, sosial müavinət, təqaüd, yaşayış minimumu, sosial yardım.

**JEL Classification Codes:** H55; H75

# İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ NƏZƏRİYYƏSİNİN KONSEPTUAL ƏSASLARI

**Aliağa Atxan oğlu İsmayılzadə**

dosent, i.e.n., ADİU
e-mail: aliaga_@mail.ru

Məqalə redaksiyaya daxil olmuşdur 14 Yanvar 2013; Çapa qəbul edilmişdir 23 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 14 January 2013; accepted 23 March 2013; published online 2 May 2013

## Xülasə

İnsan resursları haqlı olaraq müasir istehsalın əsas amillərindən biri sayılır. Bununla belə, yerli və xarici alimlər arasında hələ də “insan resursları” və “insan resurslarının idarə edilməsinə” fərqli baxışlar mövcuddur. Əksər məqalələrdə və monoqrafiyalarda bu kateqoriyaları əməyin iqtisadiyyatının müvafiq kateqoriyaları ilə - işci qüvvəsi və əmək ehtiyyatları, işçi heyəti ilə eyniləşdirirlər. Qərb alimləri arasında sadalanan kateqoriyaya aid yekun bir fikir yoxdur. “İnsan resursları” və “insan resurslarının idarə edilməsi”- istehsalda insan amilinin idarə edilməsinə nəzəri və praktiki yanaşmaların yüz ildən çox tərəqqi yolu ilə inkişafının nəticəsidir. Əgər bu prosesin əvvəlində adi fiziki məxluq kimi bir işçi dayanırdısa, bu gün artıq o mürəkkəb, daima inkişafda olan psixoloji bir varlıq kimi qəbul edilir. Əgər iyirminci əsrin əvvəlində bu problemin ilk tədqiqatçıları mühəndislər və sahibkarlar idisə, artıq 50-ci illərdən başlayaraq onlara, ixtisasca, əsasən psixoloqlar və sosioloqlar qoşuldular. Sadalanan kateqoriyaların mahiyyətini ancaq onları texniki-texnoloji amilləri, insanın və cəmiyyətin sosial-psixoloji təbiəti ilə birlikdə təhlil etmək başa düşmək olar. Qeyd olunan kateqoriyaların genezisinin əsas tarixi etaplarının təhlili bunu bir daha sübut edir. Bazar iqtisadiyyatının inkişafı onun getdikcə açılması və integrasiyası yolu ilə gedir. İnsan resurslarının bu şəraitdə səmərəli idarə edilməsi onun inkişaf strategiyasının iqtisadiyya-tın bütün səviyyələrində inteqrasiyası tələb olunur. Onların daha dərin başa düşülməsi və müasir bazar iqtisadiyyatının inkişaf mərhələsi insan resurslarının idarə edilməsinin üç səviyyədə bölünməsini tələb edir; müəssisə, ölkə və beynəxalq iqtisadiyyat.

**Açar sözlər:** iş qüvvəsi, müəssisənin personalı, insan münasibətləri, insan resursları, davranış elimləri.

**JEL Classification Codes:** O15

# BOLQARSTANDA SPA XİDMƏTLƏRİN BİRGƏ TƏHLİLİ

**Sveta Karadjova**

Aspirant ,"St. Kliment Ohridski"adına Sofiya Universiteti

Məqalə redaksiyaya daxil olmuşdur 17 Yanvar 2013; Çapa qəbul edilmişdir 22 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 17 January 2013; accepted 22 March 2013; published online 2 May 2013

**Xülasə**

Səhiyyə, səyahət və qonaqpərvərlik sektorunun yaxınlaşması ilə yanaşı rifah və davamlı inkişaf sahəsinə artan diqqət Spa sahəsinin davamlı inkişafına müsbət təsir göstərir. Lakin, hələ də qarşıda duran vəzifələr var. Qlobal Spa sənayesi hələ erkən inkişaf dövründədir və yaşamın yaxşılaşdırılması üçün hələ görüləcək çox iş var, Spa terapiyasının sənədləşdirilmiş faydaları daha yaxşı şəffaflıq, məhsul və xidmətlər haqqında məlumatı təmin edir və Spa-nın maliyyə, sosial və ətraf mühit mühafizəsinin qiymətləndirilməsi üçün dayanıqlı sistemi inkişaf etdirir. Müştərək analiz məhsul və xidmət təminatçıları arasında seçim edən insanlarla bağlı mübadiləni ölçmək üçün nəzərdə tutulan tədqiqat üsuludur. Bu üsul həmçinin gələcək məhsul və xidmətlərin seçiminin proqnozlaşdırılması üçün istifadə edilir. Müştərək analiz məhsulun "komponentlərə" ayrılma imkanının olmasını göstərir. İstifadə edilən müştərək analiz, hər hansı bir məhsulla bağlı fərdlərin tətbiq etdiyi göstərici məhsulun istehsalı zamanı istifadə edilən komponentlərin dəyərinə bərabərdir. Buna əlavə olaraq, məhsula verilən üstünlük və bu məhsulu almaq arzusu məhsulun fərdlər üçün faydalıq və mənfəətindən aslıdır. Müştərək analizin əsas faydası Spa şirkətlərinə bazar paylarının yüksəldilməsi üçün zəruri tədbirlərin proqnozlaşdırılması və rəqib şirkətlərin fəaliyyətinin müştərilərə necə təsir edəcəyini proqnozlaşdırmaq üçün dinamik bazar modellərinin formalaşdırılması imkanı verir.

**Açar sözlər:** Spa sənayesi, müştərək analiz, SPA xidmətləri, faydalılıq, hissəvi dəyər

**JEL Classification Codes: N 7**

# MÜASİR TURİZMDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN ƏSASLARI

**Arzu Nacaf oğlu Həsənov**

dosent, t.e.n., ATU
E-mail: arzu_hasan@mail.ru
tel.: +994-50-340-80-41, +994-22-257-08-42

Məqalə redaksiyaya daxil olmuşdur 4 yanvar 2013; Çapa qəbul edilmişdir 9 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 4 January 2013; accepted 9 March 2013; published online 2 May 2013

**Xülasə**

**Tədqiqatın əsas məqsədi** – turizm sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin işinin planlaşdırılması və səmərəli təşkil edilməsinə və turizmin inkişafına təsir edən faktorları, turizm bazarını, turizm məhsulu istehsalı prosesini, turistlərin davranış xüsusiyyətlərini, həmçinin sahibkarın təşəbbüskarlıq keyfiyyətlərini tədqiq etməkdən ibarətdir. **Tədqiqat işi** – analiz, müqayisə, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. **Tədqiqatın nəticəsi**: aparılan tədqiqatın nəticəsi olaraq turizm sahəsində fəaliyyətin spesifik xüsusiyyətlərə malik oması, sahibkarlıq fəaliyyətinin təşkili məqsədilə mövcud turizm ehtiyatlarından səmərəli istifadə edilməsinin və turizm məhsulu istehsalı prosesinin iqtisadı əsasları, turizm fəaliyyətinin nəticəsi olan ümumi turizm məhsulunun istehsalına cəlb edilən investisiya mənbələri, sahibkarın şəxsi keyfiyyətləri və s. təhlil edilərək ümmumiləşdirilmişdir. **Tədqiqatın praktiki əhəmiyyəti-**turizm bazarında fəaliyyət göstərən, bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa hazırlaşan hüquqi və fiziki şəxslərin, turizm sahəsində elmi araşdırma aparan, elmi-pedaqoji fəaliyyətlə məşğul olan mütəxəssislərin nəzəri və praktiki biliklərini zənginləşdirməkdən ibarətdir. **Tədqiqatın orijinallığı və elmi yeniliyi** turizm sahəsində sahibkarlıq fəaliyyəti zamanı mövcud turizm potensialından səmərəli istifadə üsullarından yararlanmaq, istehsal faktorlarını müəyyən etmək, turizm məhsulu istehsalında xərclərin səviyyəsini minimuma çatdırmaq, sahibkarda təşəbbüskarlıq vərdişlərinin inkişaf etdirilməsi və davranış psixologiyası barədə biliklərin artırılması məqsədilə tövsiyələrin verilməsindən ibarətdir.

**Açar sözlər:** tornus, turizmin iqtisadiyyatı, turizm məhsulu və xidmətləri, ümumi turizm məhsulu, sahibkarlıq fəaliyyəti.

**JEL Classification Codes: L26, L 83**

# BİLİK İQTİSADİYYATININ İNKİŞAFINDA İNNOVASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**Arzu Doğru qızı Hüseynova**

Milli Elmlər Akademiyasının innovasiya mərkəzinin direktorunun I müavini, i.e.n.,dosent
E-mail: eim09@rambler.ru
Tel: (012) 4369218; 436 93 08

**Ofelya İdris qızı Mazanova**
Azərbaycan Dövlət İqtisad Universiteti
Texnoloji innovasiya və telekommunikasiya şöbəsi, aparıcı proqramlaşdırıcı
E-mail: ofelyaofelya@mail.ru
Tel: (050) 5181977

Məqalə redaksiyaya daxil olmuşdur 1 Fevral 2013; Çapa qəbul edilmişdir 8 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 1 February 2013; accepted 8 March 2013; published online 2 May 2013

**Xülasə**
Məqalədə informasiya və biliklər iqtisadiyyatı və onun infrastrukturu, inkişaf mərhələləri və texnoloji innovasiyalar haqqında məlumat verilir. İnformasiya və biliklər cəmiyyətinin əsas infrastrukturuna daxil olan texnoloji innovasiyanın inkişafı və düzgün tətbiqinin vacibliyi vurğulanır. Texnoloji innovasiyanın 25 növü sadalanır. Cəmiyyətin innovasiyalı inkişafı çərçivəsində istehsalat və təhsil innovasiyalarının texnologiyalar vasitəsilə həyata keçirmək yolları və bu istiqamətdə qarşıya çıxan bəzi problemlərdən bəhs olunur. Bundan başqa, bilik iqtisadiyyatının indeksləri əsasında MDB ölkələri üzrə tərtib olunmuş cədvəldə 2000-ci ildən 2012-ci ilədək müqayisələr göstərilir. Ölkəmizin qabaqcıl ölkələrin inkişaf tendensiyalarına uyğunlaşdırılması bir neçə MDB ölkələri üzrə nümunələrlə göstərilir. Həmçinin bu ölkələrdə bilik iqtisadiyyatının inkişafı üzrə qəbul olunan konsepsiyalardan bəhs olunur.

**Açar sözlər:** innovasiya iqtisadiyyatı , yüksək texnologiyalı sivilizasiya , bilik işçiləri, texnoloji innovasiya, innovativ sahibkarlıq

**JEL Classification Codes:** O32; Q55

# STRATEJİ İDARƏETMƏ UÇOTU SİSTEMİNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**Mehriban Cavadova**

dosent, i.e.n., ADİU
e-mail: mehribandjavadova@mail.ru
кафедра: (012)5642872
мобильный: (070)7334595

Məqalə redaksiyaya daxil olmuşdur 12 Fevral 2013; Çapa qəbul edilmişdir 26 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 12 February 2013; accepted 26 March 2013; published online 2 May 2013

## Xülasə

Strateji idarəetməyə olan tələbat, ölkədə iqtisadi dəyişikliklərin aparılması, iqtisadi böhranın kəskinləşməsi ilə əlaqədar olmuşdur ki, bu da müxtəlif formalı müəssisə və təşkilatların təsərrüfat müstəqilliyinin əldə edilməsinə zəmin yaratmışdır. Tədqiqatlar göstərmişdir ki, strateji idarəetmə uçotu müasir müəssisə və təşkilatların idarəedilməsinin effektivliyinin yüksəltməsinə yönəldilən bir uçot növüdür. Yerinə yetirdiyimiz məqalədə əsas məqsəd, strateji idarəetmə uçotu sisteminin formalaşmasi xüsusiyyətlərinə nəzər salmaq, onun informasiya bazasından, müəssisə operativliyi və analitikliyini təmin edən idarəetmə üsullarından, innovasiya yönəmli bazar iqtisadiyyatında mövcud olan müəssisənin idarəedilməsinin əsas funksiya və alətlərindən geniş bəhs etməkdir. Hal-hazırkı şəraitdə strateji idarəetmə uçotunun düzgün təşkili, lazım olan informasiyanın yığılması və təhlili (müəssisənin daxili vəziyyəti; bazar və rəqabət; məhsullar və texnologiya; hökümət qərarları) ilə əlaqədardır. Burada idarəetmə uçotunun garşısında duran əsas məsələ, müəssisələrdə maliyyə nəzarətinə yönəldilən strateji məqsədləri oxşar elementlərə bölməkdən ibarət olmuşdur. Nəticə etibarı ilə qeyd etmək lazımdır kı, idarəetmə uçotu sistemi strateji qərarların yerinə yetirilməsinə şərait yaradır, biznes-strategiyalarının nəzarətinə yönəldilən maliyyə göstəricilərini formalaşdırır və bütövlükdə müəssisə strukturunu gələcək dəyişikliklərin aparılmasına hazırlaşdırır.

**Açar sözlər:** idarəetmə uçotu; strateji idarəetmə uçotu; informasiya təminatı; operativlik və analitiklik; maliyyə vəziyyəti.

**JEL Classification Codes:** M41

# TƏBİİ İNHİSAR SUBYEKTLƏRİ (ELEKTROENERGETİKA) ÜZRƏ QİYMƏT VƏ TARİFLƏRİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**Qalib Sirac oğlu Hüseynov**

i.e.n., dos. SDU
E-mail: qalib1969@mail.ru
Mobil tel: (+994 50) 752 22 91

Məqalə redaksiyaya daxil olmuşdur 6 Fevral 2013; Çapa qəbul edilmişdir 28 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 6 February 2013; accepted 28 March 2013; published online 2 May 2013

## Xülasə

Məqalədə qeyd olunur ki, inhisar məhsulları üzrə qiymətlərin tənzimlənməsi qiymətlərin tənzimlənməsinin daha bir tərəfidir. Qiymət tənzimlənməsinə münasibətdə balans axtarışı təbii inhisarın son və orta xərcləri arasında ədalətli əlaqə yaradan qiymətlərin müəyyən edilməsindən ibarətdir ("birinci və ikinci ən yaxşı həll"). Ənənəvi olaraq elektroenergetikanın açıq-aydın inhisar xüsusiyyətlərinə malik olması qeyd olunur və onun tənzimlənməsi prinsipləri verilir. Təbii inhisarın tənzimlənməsi metodları üzrə prinsiplərin R.Brotiqam tərəfindən təklif olunduğu göstərilir. Onların tətbiqi son hədd və orta xərclər arasında fərqdən asılı olan konkret istehsalın "ölü zərərlər"i miqdarının qiymətləndirilməsinə əsaslanır. Burada "birinci ən yaxşı həll"ə səbəb olan tənzimlənmə metodları verilir. Qiymət diskriminasiyası məsələlərinə toxunulur. Göstərilir ki, inhisar şəraitində qiymət diskriminasiyasının tətbiqi firma üçün mənfəətin maksimumlaşdırılması strategiyasıdır və o, resursları istehlakçılar arasında effektiv bölüşdürmək imkanı verir. Müəllif bazarda qiymət diskriminasiyası ilə bağlı olan qiymətin əmələ gəlməsi sxeminin fəaliyyətinin mənfi xüsusiyyətlərə də malik olduğunu təəssüflə qeyd edir. O, "ikinci ən yaxşı həll"ə səbəb olan tənzimlənmə metodlarını təqdim edir. Ramsey modeli üzrə qiymətin əmələ gəlməsinin mahiyyətini açıqlayır. Müəllif Ramsey qiymətləri ilə bağlı olan birinci problemdən qaçmağa Vogelsanq-Finsinger mexanizminin kömək etdiyini göstərir və həmin mexanizmi açıqlayır. Burada iki komponentli tariflər, giriş haqqı və blok tarifləri haqqında məlumat əksini tapır.

**Açar sözlər:** qiymət, təbii inhisar, zərər, tənzimləyici

**JEL Classification Codes:** D42

# TƏHSİLİN İCTİMAİ-DÖVLƏT İDARƏETMƏ SİSTEMİNİN TƏŞƏKKÜL TAPMSI ŞƏRAİTİNDƏ REGİONAL TƏHSİL XİDMƏTLƏRİ BAZASININ İNKİŞAFI

**Polişuk Y.**

dos. V.İ.Vernadski adına Tavriya Milli Universiteti,Ukrayna
E-mail: pea.znu@mail.ru
Tel.: 067-98-98-177

Məqalə redaksiyaya daxil olmuşdur 8 Fevral 2013; Çapa qəbul edilmişdir 20 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 8 February 2013; accepted 20 March 2013; published online 2 May 2013

**Xülasə**

Məqalədə regional təhsil xidmətləri bazarı tədqiq edilmiş, müasir təhsil xidmətlərinin təşkil edilməsi üçün yerli hakimiyyətin ən perspektiv işləri müəyyən edilmiş, operativ və strateji planlaşdırmanın informasiya təminatı zamanı təklif olunan xidmətlərin keyfiyyətinin sosial vəziyyəti təsvir edilmişdir. Tədqiqatın gedişində müəyyən edilmişdir ki, regional təhsil sisteminin yeniliklərinin yeridilməsi və sonrakı inkişafının planlaşdırılmasının tədqiq edilməsi təhsil xidmətlərinin sosial sifarişə uyğunluğunu müəyyən etməyə və müxtəlif amillərin təsiri altında sosial sifarişin dəyişmə dinamikasını izləməyə kömək edən monitorinq tədqiqatlarının aparılmasına ehtiyac vardır. Bu cür yanaşma xarici sosial mühitdə prosesləri proqnozlaşdırmağa, təhsil sisteminin məzmun və strukturunun regional və dövlət səviyyəsində moderinləşdirilməsi yolu ilə onlara adekvat yanaşmağa imkan verəcək.

**Açar sözlər:** təhsil xidməti, təhsil xidməti bazarı, regionlar xidmət

**JEL Classification Codes:** I21: I25

# YENİ SİYASİ İQTİSADİYYATIN PARADİQMASI

**Tuşenko M. P.**

s.e.n., Vadim Hetman adına Kiyev Milli İqtisadiyyat Universiteti
E-mail: tishenko19@ukr.net
Tel:+38-066-070-23-83

Məqalə redaksiyaya daxil olmuşdur 15 Yanvar 2013;
Çapa qəbul edilmişdir 29 Mart;
online-da çap edilmişdir 2 may 2013
Received 15 January 2013; accepted 29 March 2013; published online 2 May 2013

**Xülasə**

Məqalədə yeni siyasi iqtisadiyyatın xüsusiyyətləri nəzərdən keçirilir. Məqalənin əsas ideyası-siyasət və iqtisadiyyat kimi kateroqiyaların əhəmiyyətini vurğulamaq üçün bu məsələyə yanaşması daha çox müasir iqtisadi təhlilin formal və texniki vasitələrindən istifadəsilə müəyyən olunan yeni siyasi iqtisadiyyatdır. Mövcud olduğu uzun illər boyu "siyasi iqtisadiyyat" bir çox müxtəlif mənalar kəsb etmişdir. Adəm Smit üçün, siyasi iqtisadiyyat sərvət yaradılması məqsədilə ölkə resurslarının idarə edilməsi elmi idi. Marks üçün bu tarixi proseslərə təsir edən istehsal vasitələri üzərində mülkiyyət idi. XX əsrin böyük hissəsi ərzində "Siyasi iqtisadiyyat" kateqoriyaların ziddiyyəti kimi çıxış edirdi. Bəzən ona tədqiqat sahəsi kimi (iqtisadiyyatın və siyasətin arasında qarşılıqlı əlaqələr) kimi baxılır, bəzi hallarda isə metodoloji yanaşma kimi nəzərdən keçirilir. Hətta metodoloji yanaşma özlüyündə iki hissəyə bölünmüşdü: rasionallığı ayrılıqda vurğulayan iqtisadi yanaşma (adətən ictimai seçim adlandırılır) və təhlilin əsasən institutsional səviyyədə olduğu sosioloji yanaşma. Son onilliklərdə yeni siyasi iqtisadiyyat ən fəal tədqiqat istiqamətlərindən birinə çevrilmişdir. İctimai seçim məktəbinin rasional gözləmələr, makroiqtisadiyyat və oyunlar nəzəriyyəsi kimi daha erkən işlərinə əsaslanaraq siyasi iqtisadiyyat rasional seçicilərə, partiyalar və siyasi modullara tərəf "növbəti addımını atdı". "Yeni" siyasi iqtisadiyyat iqtisadiyyatda mövcud olan erkən yanaşmalar üçün yalnız ön şərt deyildir. Baxmayaraq ki, siyasətin iqtisadi nəticələrə necə təsir etməsi barədə suallara güclü marağı xarakterizə edir. Yeni Siyasi İqtisadiyyat İqtisadi siyasətin analizinin sahəsinin genişlənməsi və beləliklə, onun əhəmiyyətinin artırılması haqqındadır.

**Açar sözlər:** yeni siyasi iqtisadiyyat, siyasi analiz, siyasi iqtisadiyyatın predmeti

**JEL Classification Codes: P 16**

# TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN KREDİT MENECMENTİNİN ANALİTİK TƏMİNATI

**V.P.Belyakova**
Aspirant, Kiyev Milli Ticarət İqtisadiyyat Universiteti
E-mail: bvp.public@gmail.com
mobile tel: +380 679 822 285

Məqalə redaksiyaya daxil olmuşdur 1 Fevral 2013; Çapa qəbul edilmişdir 22Mart; online-da çap edilmişdir 2 may 2013
Received 1 February 2013; accepted 22 March 2013; published online 2 May 2013

## Xülasə

Tədqiqatın məqsədi təsərrüfat subyektlərinin işlənməsidir. Məqalə kreditorlarla borc alanların optimal sayının müəyyən edilməsi zamanı borcun optimal strukturunun qurulmasını şərtləndirir. Tədqiqat prosesində tətbiq edilən metodlar ümumi idrak nəzəriyyəsinə əsaslanır. Bunlara ümumelmi (analiz, sintez, dedkusiya, modelləşdirmə) və empirik-nəzəri (formalizasiya, hipotetik) metodlar aiddir. Həmçinin konktet elmi metodlar da (sadə riyazi və riyazi analiz) tətbiq edilmişdir. Tədqiqat nəticəsində təsərrüfat subyektlərinin kredit münasibətlərinin həyata keçirilməsi zamanı onların maraqlarının uzlaşdırılması modeli təklif edilmiş və kredit layihələrinin nəticələri haqqında tərəflərin obyektiv məlumatlandırılması, xəbərdar edilməsini təsdiq edən bir sıra şərtlər müəyyənləşdirilmişdir. Alınmış nəticələrin praktik əhəmiyyəti kredit menecmenti məqsədilə kredit münasibətlərinin təhlili metodikasının tətbiqi ilə bağlı təcrübənin zənginləşdirilməsindən ibarətdir. Tədqiqatın nəticələrinin tətbiqi hesablama informasiyasının həqiqliyini və analitikliyini dərinləşdirməyə, cəlb edilmiş vəsaitlərin səmərəli strukturunun formalaşdırılması və kreditorların optimal sayının müəyyən edilməsi yollarının təkmilləşdirilməsinə imkan verə bilər.

**Açar sözlər:** kredit münasibətləri, borcun strukturu, kreditorların optimal sayı, tərəflərin xəbərdar edilməsi, likvidlik defoltu

**JEL Classification Codes:** G32

# DAVAMLI İNKİŞAFIN BƏZİ SOSİAL-İQTİSADİ PARAMETRLƏRİ

**Hüseyn Əmrah oğlu Hüseynov**

Bakı Dövlət Universitetinin doktorantı
Bakı şəhəri AZ 1000, Z.Xəlilov küç 23
e-mail:hhuseynov@mlspp.gov.az
Tel: iş: (+994 12) 596 80 18
Mobil tel: (+994 50) 436 63 63

Məqalə redaksiyaya daxil olmuşdur 10 Yanvar 2013; Çapa qəbul edilmişdir 6 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 10 January 2013; accepted 6 March 2013; published online 2 May 2013

**Xülasə**

Bu tədqiqatın başlıca məqsədi davamlı iqtisadi inkişafatəsir edən bəzi sosial-iqtisadi parametrlərin təhlilindən ibarətdir. Tədqiqatın əsas metedologiyası nəzəri və empirik üsullardan istifadə edərək davamlı inkişafın əsas elementlərindən olan sosial və iqtisadi inkişafın bəzi parametrlərinin təhlilini təşkil edir.Araşdırmanın nəticəsi onu deməyə imkan verir ki, davamlı inkişafın təmin edilməsi üçün uzun-müddətli dövrdə rifah halının maksimallaşdırılması prioritet olmalıdır. Burada iqtisadi artımın təmin edilməsi, gəlirlərin bərabər bölünməsi və insan potensialının inkişafı parametrləri təhlil edilməlidir.Bundan əlavə, aparılan araşdırmanın praktik əhəmiyyəti, xüsusilə inkişafda olan ölkələrdə dayanıqlı və davamlı inkişafa nail olunması üçün siyasətin formalaşdırılmasında nəzərə alınacaq indikatorların hesablanmasında yeni empirik və nəzəri-metedoloji yanaşmaların tətbiqindən ibarətdir.

**Açar sözlər:** davamlı inkişaf, ümumi daxili məhsul, insan inkişafı indeksi, gini Indeksi

**Jel Classification: A13, C01,O11, O15**

# İQTİSADİ SİSTEMƏ NƏZƏRİ VƏ PRAKTİK BAXIŞ

**Vəli Əli oğlu Həziyev**

müəllim, dissertant, ADİU
E-mail: veli51@mail.ru
İş telefon: 564-12-55
Mobil tel: (+994 50) 3509372

Məqalə redaksiyaya daxil olmuşdur 11 Fevral 2013; Çapa qəbul edilmişdir 30 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 11 February 2013; accepted 30 March 2013; published online 2 May 2013

## Xülasə

Tədqiqatın məqsədi nəzəri və praktiki materiallar əsasında cəmiyyətin iqtisadi sistemini araşdırmaqdır. Müasir iqtisadi ədəbiyyatlarda iqtisadi sistemin mahiyyətinə, ümumiyyətlə sistemə aid olan fikirlərə diqqət yetirilir. İqtisadi sistemin formalaşmasına təsir edən amillər, xarakterik xüsusiyyətləri sadalanır və təkmilləşdirilməsi yolları araşdırılır. İqtisadi sistemlərin növləri xarakterizə olunur. Planlı iqtisadi sistemlə bazar iqtisadiyyatı sisteminin müqayisəli şəkildə təhlilinə cəhd edilmişdir**.** Bazar iqtisadiyyatına məxsus nöqsanlara baxmayaraq bu sistemin dünyada üstünlük təşkil etməsi və bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycan Respublikasının iqtisadi göstəriciləri, nailiyyətləri, xüsusilə sahibkarlığın inkişafına olan münasibət təhlil olunur. Ölkənin regionlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin daha da yaxşılaşdırılmasını və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları qeyd olunur. İqtisadi sistemin fəaliyyətinə qloballaşmanın təsiri, müasir şəraitdə iqtisadiyyatın modernləşməsi və milliliyin qorunub saxlanmasının zəruriliyi ön plana çəkilir. Bununla yanaşı, dünyada mövcud olan qabaqcıl texnologiyadan bəhrələnmənin vacibliyi qeyd edilir. Mükəmməl iqtisadi sistem yaratmaq üçün inzibati amirlik planlı sistem ilə tənzimlənən bazar iqtisadiyyatı sistemi arasında "qızıl orta" tapmaq, iqtisadi sistemin səmərəliliyini artırmaq üçün kompleks, sistemli yanaşma təklif olunur.

**Açar sözlər:** iqtisadi sistem, bazar iqtisadiyyatı, bazar, modernləşmə

**JEL Classification Codes:** P00

# MAŞINQAYIRMA MÜƏSSİSƏLƏRİNİN İSTEHSAL POTENSİALININ DÖVLƏT TƏRƏFİNDƏN STİMULLAŞDIRILMASI

**Ərzuman Aydın oğlu Hüseynov**

dissertan, müəllim ADİU
e-mail:arzuman-huseynov@rambler.ru
Tel: (+994 55) 543 50 79

Məqalə redaksiyaya daxil olmuşdur 24 yanvar 2013; Çapa qəbul edilmişdir 29 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 24 January 2013; accepted 29 March 2013; published online 2 May 2013

## Xülasə

**Bu tədqiqatın əsas məqsədi** – maşınqayırma müəssisələrinin timsalında müəssisələrin istehsal potensialının inkişafında dövlətin rolunu elmi cəhətdən tədqiq etməkdən və bu sahədə olan problemlərin həlli baxımından müəyyən tövsiyələr verməkdən ibarətdir. **Tədqiqat işi** - müqayisə, iqtisadi - statistik təhlil və elmi abstraksiya kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. **Tədqiqatın nəticəsi:** aparılan araşdırmanın nəticəsi olaraq maşınqayırma müəssisələrində istehsal potensialının dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi göstərilmiş, maşınqyırma müəssisələrinin və onların istehsal potensialının inkişafında dövlət tərəfindən həyata keçirilən valyuta siyasətinin, dövlət tərəfindən müəssisələrə gizli və ya açıq şəkildə verilən subsidiyaların, dövlət tərəfindən daxili bazarlarda rəqabət mühitinшт yaradılmasının, ölkədə korporativ idarəetməninin inkişaf inkişaf etdirilməsinin, dövlətin innovasiya və əsas fondların amortizasiya siyasətinin təsiri araşdırılıb. **Tədqiqatın məhdudiyyətləri** - daha geniş praktik informasiya tələbidir. **Tədqiqatın praktik əhəmiyyəti** – sənaye müəssisələrinin istehsal potensialının artırılması və inkişaf etdirilməsi üçün bu sahədə dövlət tənzimləməsi vasitələrinin yaradılması və mövcud olanların təkmilləşdirilməsi istiqamətində elmi araşdırma aparan, habelə bu sahədə çalışan mütəxəssislərin elmi və əməli biliklərini zənginləşdirməkdən ibarətdir. **Tədqiqatın orijinallığı və elmi yeniliyi ondan ibarətdir ki,** tədqiqat işində inkişaf etmiş ölkələrin sənaye müəssisələrinin və onların istehsal potensialının inkişafının dövlət tərəfindən tənzimləтməsi sahəsindəki mükəmməl təcrübələrindən və müvafiq yönümlü elmi-tədqiqat işlərindən istifadə edərək elmi araşdırmalar aparılmış və nəticə olaraq, müəssisə səviyyəsində istehsal potensialının inkişafının dövlət tərəfindən tənzimləтməsinin təkmilləşdirilməsi məqsədilə tövsiyələr verilmişdir.

**Açar sözlər:** istehsal potensialı, dövlət tənzimlənməsi, korporativ idarəetmə, innovasiya, amortizasiya siyasəti.

**JEL Classification Codes:** L64

# MİLLİ İQTİSADİYYATIN DAVAMLI İNKİŞAF STRATEGİYASININ REALLAŞMASINDA XARİCİ İQTİSADİ SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Etibar Mirzəyev**

dissertant, ADİU

Məqalə redaksiyaya daxil olmuşdur 12 yanvar 2013; Çapa qəbul edilmişdir 10 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 12 January 2013; accepted 10 March 2013; published online 2 May 2013

## Xülasə

İnkişafın davamlı tipinə keçidlə əlaqədar səmərəli xarici iqtisadi fəaliyyətin təmini və tətbiq edilən dövlət mexanizmlərinin təkmilləşdirilməsi müasir şəraitdə qarşıda duran ümdə vəzifələrdəndir. Davamlı inkişafı təmin etmək üçün xarici iqtisadi siyasətin prioritet məqsədlərinin təyin edilməsi, xarici iqtisadi siyasətin reallaşdırılmasında daxili və xarici maraqlar arasında kompromisin tapılması, ölkədə zəruri davamlı inkişaf mühitinin yaradılması zamanı xarici iqtisadi siyasətdə nəzərə alınmalı olan amillər, xarici iqtisadi siyasətin reallaşması mexanizmləri və istiqamətlərinin təyini məqalənin tədqiqat obyektini təşkil edir. Məqalədə qarşıya qoyulan əsas vəzifə innovativ xarakterli davamlı inkişafı reallaşdırılan xarici iqtisadi siyasətin həyata keçirilməsi, bu prosesin dövlət tənzimlənməsinin səmərəliliyinin artırılmasından asılı olmasını əsaslandırmaq, zəruri olan dövlət tədbirlərini təklif etməkdir.

**Açar sözlər:** davamlı inkişaf, xarici iqtisadi siyasət, dövlətin tənzimləmə Mexanizm

**JEL Classification Codes:** P45; Q56

# YERLİ SOSİAL-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNDƏ RAYON BƏLƏDİYYƏLƏRİNİN İŞTİRAKINI MƏHDUDLAŞDIRAN MALİYYƏ AMİLİ

**Saleh Daşdəmir oğlu Məmmədov**
baş müəllim, ADAU
E-mail: saleh.np.aze@gmail.com
Mobil tel:(+994 50) 411 01 04

Məqalə redaksiyaya daxil olmuşdur 11 Fevral 2013; Çapa qəbul edilmişdir 19 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 11 February 2013; accepted 21 March 2013; published online 2 May 2013

## Xülasə

**Tədqiqatın əsas məqsədi** – regionların sosial-iqtisadi problemlərinin həllində yerli idaretmə orqanlarının, o cümlədən bələdiyyələrin rolunun artırılması və yerli özünüidarəetmə orqanlarının fəaliyyət sahələrinin genişlənməsində maliyyə təminatının vacibliyini tədqiq etməkdən ibarətdir. **Tədqiqat işi** – sistemli təhlil, elmi abstraksiya və məntiqi ümumiləşdirmə, qarşılıqlı müqayisə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. **Tədqiqatın nəticəsi** – aparılan araşdırmaların nəticəsi olaraq bələdiyyə büdcələrinin dövlət büdcəsinə nisbətən çox zəif inkişafı, xarici ölkələrlə müqayisədə xeyli geri qalması qeyd olunmuş, yerli büdcələrin hazırki durumu statistik məlumatlara əsasən qiymətləndirilmiş və problemin həlli istiqamətində obyektiv və subyektiv səbəblərin aradan qaldırılması yolları təklif olunmuşdur. Bu istiqamətdə aparılan işlərdə xarici təcrübənin tətbiqi və mərkəzi büdcədən bələdiyyələrə verilən yardımların strukturunda təkmilləşmələrin aparılması təklif olunmuşdur. Təklif olunan işlərin əksəriyyətinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının yerli özünüidarə haqqında qanunvericilik bazası çox böyük imkanlar yaradır. **Tədqiqatın məhdudiyyətləri** – yerli özünüidarələr haqda daha geniş informasiya və onların fəaliyyətinin əyani şəkildə öyrənilməsi tələb olunur. **Tədqiqatın praktik əhəmiyyəti** – regional idarəetmədə yerli özünüidarəetmə orqanlarının rolunun artırılması, əhaliyə daha yaxın idaretmə orqanı sayılan bələdiyyələrin maliyyə imkanlarının artırılması, yerlərdə təşəbbüskarlığın gücləndirilməsi, yerli məsələlərin həllində vətəndaşların iştirakının təmin edilməsindən ibarətdir. Qeyd olunan məsələlərin həlli yerlərdə əhalinin yaşayış səviyyəsinin inkişafına, daha demokratik və şəffaf idaretmə strukturuna nail olunmasına kömək edəcəkdir. **Tədqiqatın orijinallığı və elmi yeniliyi** ondan ibarətdir ki, araşdırmalar zamanı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatlarından və digər elmi-tədqiqat materiallarından istifadə edilməklə, təhlil işləri yerinə yetirilmiş, qanunvericilik bazası öyrənilmiş, bələdiyyələrin fəaliyyətində səmərəliliyin və effektivliyin artırılması məqsədilə tövsiyələr verilmişdir.

**Acar sözlər:** maliyyə imkanları, bələdiyyə, sosial-iqtisadi problemlər, büdcə vəsaitləri
**JEL Classification Codes:** H53; I38

# İQTİSADİYYATIN REAL SEKTORUNDA MÜƏSSİSƏNİN ANTİBÖHRAN İDARƏETMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Rüfət Vaqif oğlu Abdullayev**

dissertant, ADİU
E-mail: r.abdullayev@mail.ru
Mobil tel: (+994 50) 210 97 13; (+994 55) 750 50 05

Məqalə redaksiyaya daxil olmuşdur 5 Yanvar 2013;
Çapa qəbul edilmişdir 11 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 5 January 2013; accepted 11 March 2013; published online 2 May 2013

**Xülasə**

Müəssisənin maliyyə çatışmazlığı, böhran vəziyyəti və müflisləşməsinin aradan qaldırılması məsələlərinə bütün ölkələrdə diqqət ayırmışlar. Belə hadisələr baş verməsin deyə və real sektor müəssisələrinin iri maliyyə uğursuzluqlarının aradan qaldırılması üçün antiböhran idarəetməsinin dəqiq, müzakirə edilmiş siyasətini işləyib hazırlamaq, müəssisənin maliyyə vəziyyətini müntəzəm olarak təhlil etmək lazımdır. Təhlilin məqsədi-müəssisənin maliyyə vəziyyətinin daima öyrənilməsi və bunun əsasında onun ödəmə qabiliyyəti, balansının likvidləşdirilməsi, səmərəliliyinin müəyyən edilməsidir ki, bunların da nəticəsində müəssisə öz maliyyə vəziyyətini mütəmadi olaraq qiymətləndirə bilir. Məqalədə, böhran vəziyyətlərinin aradan qaldırılması və müflisləşmənin mövcud əlamətlərinin vaxtında aşkar edilməsi məqsədilə iqtisadiyyatın real sektorunda müəssisənin antiböhran idarəetmə məsələləri təhlil edilir.

**Açar sözlər:** antiböhran idarəetməsi, maliyyə vəziyyəti, maliyyə analizi, real sektor, müəssisə, müflisləşmə

**JEL Classification Codes:** H12

# GÖMRÜK ORQANLARININ FƏALİYYƏTİNDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİSTEMİNİN İŞLƏDİLMƏSİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

**Lamiyə Mavaddin qızı Hüseynova**

dissertant, ADİU
e-mail: Lam.huseynova@yandex.ru
mobil: (+994 55) 880 77 75

Məqalə redaksiyaya daxil olmuşdur 4 Yanvar 2013; Çapa qəbul edilmişdir 21 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 4 January 2013; accepted 21 March 2013; published online 2 May 2013

**Bu tədqiqatın əsas məqsədi** – gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsinin təsirli mexanizmi və gömrük nəzarətinin keyfiyyətinin yüksəldilməsi baxımından idarəetmənin və risklərin təhlilinin nəzəri və metodolojı əsaslarının öyrənilməsidir. **Tədqiqat işi** xarici iqtisadi fəaliyyətin tənzim edilməsi sahəsində milli və xarici mütəxəssislərin nəzəri və praktik işlərin təhlili və sintezinə əsaslanan sistemli kompleks tədqiqat üsullarından istifadə edərək yerinə yetirilmişdir._**Tədqiqatın nəticəsində** malın gömrük dəyərinə nəzarətin həyata keçirilməsi zamanı risklərin idarə edilməsi sisteminin işlənməsi, təyin edilməsi və istifadə edilməsi qaydaları müəyyən edilmişdir. Bununla yanaşı gömrük dəyərinə nəzarətdə risklərin idarə edilməsi sistemindən istifadə edilməsi ilə bağlı olan əsas problemlər üzə çıxarılmışdır. **Tədqiqatın məhdudiyyətləri** - risklərin idarə edilməsi sisteminin təcrübədə tətbiq edilməsi məsələlərinin məlumatla kifayət dərəcədə təmin edilməməsidir. **Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarədir ki, beynəlxalq mübadilənin tənzimlənməsi müasir şəraitdə gömrük orqanlarında idarə fəaliyyəti kimi sahədə idarəetmə müvəffəqiyyətlə tətbiq edilə bilər, həmçinin risklərin təhlili gömrük sistemində idarəetməni təkmilləºdirmə vasitələrindən biridir. **Tədqiqatın orijinallığı və elmi yeniliyi** risklərin qiymətləndirilməsi prinsipindən istifadə edərək gömrük nəzarətinin sadələşdirilməsi üçün yeni yanaşmaların hazırlamasında öz əksini tapır.

**Açar sözlər:** risklərin idarəedilməsi, riskin indikatoru, risklərin azaldılması, operativ qiymətləndirilməsi, məlumat sistemi

**JEL Classification Codes: F5**

# DÜNYA TƏCRÜBƏSİNDƏ REGİONAL SOSİAL-İQTİSADİ İNKİŞAFIN MALİYYƏ MEXANİZMİ

**Nüsrət Salman oğlu Babayev**

doktorant, ADİU
E-mail:Nusrat.babayev@royalsigorta.az
Mobil tel: (+994 50) 223 52 43

Məqalə redaksiyaya daxil olmuşdur 15 Yanvar 2013; Çapa qəbul edilmişdir 27 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 9 January 2013; accepted 27 March 2013; published online 2 May 2013

## Xülasə

Bazar iqtisadiyyatı şəraitində maliyyə sisteminin arasıkəsilməz fəaliyyətinin təmin edilməsi və dövlətlə təsərrüfat subyektləri arasında maliyyə münasibətlərini tənzimləmək məqsədilə hökumət müvafiq olaraq həm ölkə səviyyəsində, həm də regionlarda məqsədyönlü maliyyə siyasətini həyata keçirir. Maliyyə siyasəti praktiki tətbiqini maliyyə mexanizmi vasitəsilə reallaşdırılan dövlətin maliyyə tədbirlərində tapır. Bütün göstərilən məsələlər hazırki məqalədə dərindən araşdırılaraq müvafiq nəticələrə gəlinmişdir. Tədqiq olunan məsələlərin araşdırılmasının metodoloji əsasını dialektik metod və onun çərçivəsində sosial-iqtisadi hadisələrin və proseslərin öyrənilməsinin digər üsulları təşkil etmişdir: ümumi elmi, sistemli-struktur yanaşma, iqtisadi-riyazi, təhlil və ümumiləşdirmə, monoqrafik, konkret-tarixi və s. Məqalədə aşağıdakı nəticələr əldə edilmişdir: regional maliyyə, regional büdcə-vergi siyasəti, regional maliyyə mexanizmi terminləri metodoloji baxımdan araşdırılmış və onların tərifi verilmişdir; regionların sosial iqtisadi inkişafının tənzimlənməsinin dünya təcrübəsindəki modelləri araşdırılmış, regional inkişafın maliyyə mexanizminin ayrı-ayrı ölkələrdəki xüsusiyyətləri tədqiq edilmişdir.

**Açar sözlər:** maliyyə mexanizmi, rasional idarəetmə, maliyyə münasibətləri, maliyyə resursları, regional maliyyə

**JEL Classification Codes:** R11

# AQRAR SEKTORUN İNKİŞAFINDA QİYMƏT AMİLİ

**Esmira Canəli qızı Abdullayeva**

dissertant, ADİU
Tel:(+99451) 8971786
e-mail: esmira_abdullayeva@mail.ru

Məqalə redaksiyaya daxil olmuşdur 25 Yanvar 2013; Çapa qəbul edilmişdir 1 Mart; online-da çap edilmişdir 2 may 2013
Received 25 January 2013; accepted 1 March 2013; published online 2 May 2013

## Xülasə

Kənd təsərrüfatı istehsalının səmərəliliyi yalnız qiymət yaranmasının iqtisadi əsaslandırılmış sistemində mümkündür. Çünki, qiymət təkcə bazar tarazlığına uyğun deyil, həm də istehsalçı imkanları ilə məsrəflər arasındakı tarazlığa uyğun formalaşır. Qiymət formalaşmasının bu konseptual cəhətini nəzərə aldıqda, qiymət siyasətinin aqrar sektorun inkişafındakı rolunu daha əhatəli araşdırmaq ehtiyacı yaranır. Bu da məqalənin aktuallığını şərtləndirir. Məqalədə əsas məqsəd kimi Azərbaycanda kənd təsərrüfatının inkişafının müasir vəziyyəti öyrənilmiş və müəyyən problemlər göstərilmişdir. Tədqiqatın nəticələri. İqtisadiyyatın ən mühüm sahələrindən biri sayılan aqrar sahənin inkişafında qiymət amilinin rolu araşdırılmış,bu məsələlər ilə bağlı müəyyən təhlillər aparılmış, bunun əsasında analitik ümumiləşmələr aparılaraq, nəticə və təkliflər hazırlanmışdır. Həmçinin məqalədə təminatlı qiymətlər sisteminin tətbiqinin kənd təsərrüfatının stabil inkişafı üçün zəruriliyi əsaslandırılmışdır. Tədqiqatın elmi yeniliyi. Aqrar sahənin inkişafında qiymət amilinin imkanları qiymətləndirilmiş və müəyyən nəzəri və praktiknəticələr əldə edilmişdir. Tədqiqatın təcrübəvi əhəmiyyəti. Tədqiqat zamanı irəli sürülən nəticə və təkliflər aqrar sektorda islahatların səmərəliliyini yüksəltmək və bu sahədə mövcud olan iqtisadi problemləri həll etmək üçün istifadə oluna bilər. Tədqiqat işi statistik təhlil və analitik ümumiləşmə əsasında yerinə yetirilmişdir.

**Açar sözlər**: aqrar sektor, böhran, qiymət, inhisarçılıq, səmərəlilik

**JEL Classification Codes:** Q18;E64

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ (rüblük elmi və praktiki)"

## Müəllif üçün qaydalar

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalədə açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 5 söz), xülasə (Azərbaycan, İngilis və Rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı: **nazimxx@yahoo.com; n.hajiyev@aseu.az** .

3. Məqalənin xülasəsi **200-250 sözdən** çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.

4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm**)** boşluq buraxılmalıdır.

7. Məqalə **Azərbaycan, İngilis və Rus dillərində** qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

## Science Reviews Azerbaijan State University of Economics

## (quarterly scientific and practical)

## Notes for Contributors

1. Articles not published or submitted for publication elsewhere are accepted in Azerbaijani, English and Russian.
2. Articles should be typed in A4 format, **with 1.5 line spacing, font Times New Roman**, of **not less than 10 pages**, with gaps at the edges (left 30 mm, right 10 mm, 25 mm from the top and bottom 20 mm). Articles should be sent official e-mail address of the journal **(nazimxx@yahoo.com; n.hajiyev@aseu.az).**
3. **Article shall not be less than 10 pages**, including: keywords (in Azerbaijani, English and Russian), abstracts (Azeri, English and Russian), record, main part, conclusions, references, applications, graphics and tables.
4. Abstract of the article should be appropriate to its content.
5. The first page should include (i) the title of the article; (ii) the name(s) of the author(s); (iii) institutional affiliation(s) of the author(s); (iv) an abstract of not more than 200-250 words in English (text of abstracts must be consist of sections of "purpose", "design/methodology/approach", "findings", "research limitations/ implications", "practical implications" and "originality/value"); (v) keywords must not be more than 5 words; (vi) JEL codes. The name, address, e-mail address, phone and fax numbers and academically sphere of interest of the author(s) should be indicated on a separate page.
6. The article should contain links to scientific sources. Provided later in the article references must be numbered not in alphabetical order, and in a sequence that occurs in the text link literature and denoted as [1] or [1, p 119]. If the text is repeated reference to the same literature, the other in the text, this refers literature should be given the previous number. In the list of references should be given priority monographs, etc. the last 5-10 years.
7. Articles recommended or submitted for publication by the editor or one of the specialist members of the Editorial Board after reviewing secret reviewed.
8. Consent or refusal of articles declared after a discussion of the Editorial Board.

# Научные Вести Азербайджанского Государственного Экономического Университета (квартальный научно и практический)

## Правила для авторов:

1. Статьи принимаются на азербайджанском, английском и русском языках.

2. Статьи должны быть написаны в формате А4, **с интервалом в 1,5**, шрифтом **Times New Roman**, с пропусками по краям (слева 30 мм, справа 10 мм, сверху 25 мм и снизу 20 мм). Электронная почта: **nazimxx@yahoo.com; n.hajiyev@aseu.az**

3. Должны быть указаны: название статьи, автор(ы), ученая степень, должность, структуры, где они работают, электронная почта, номера рабочего и мобильного телефонов автора (ов).

4. **Статья не должна быть меньше 10 страниц**, включая: ключевые слова (на азербайджанском, английском и русском языках), резюме на (азербайджанском, английском и русском языках), введение, основную часть, выводы, источники, приложения, рисунки и таблицы.

5. Резюме статьи должно быть не менее 200-250 слов, показывать цель, значение и место исследования в научной периодике, используемые или формируемые методы, на какие вопросы отвечает и область применения, не должно быть написано как введение и выводы.

6. Резюме статьи должно соответствовать ее содержанию.

7. В конце научной статьи должны быть четко отмечены научная новизна, практическая значимость, экономическая эффективность и т.д. работы в соотвеетствии с характером научной области статьи.

8. В статье должны быть ссылки на научные источники. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован не в алфавитной последовательности, а в последовательности, в которой встречается в тексте ссылаемая литература и обозначаться как [1] или [1,стр. 119]. Если в тексте есть повторная ссылка на одну и ту же литературу, то эта ссылаемая литература должна быть указана предыдущим номером. В списке литературы должно быть отдано предпочтение научным статьям, монографиям и т.д. последних 5-10 лет.

9. Статьи должны быть оригинальны и ранее не представлены в другие национальные или международные журналы.

10. Статьи рекомендуются или представляются к печати редактором или одним из специалистов-членов редакционного совета после тайного рецензирования рецензирующих.

11. Согласие или отказ в приеме статьи объявляется после обсуждения редакционным советом журнала.

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ

**(rüblük, elmi və praktiki)**

### MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) adresləri, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalədə açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 5 söz), xülasə (Azərbaycan, İngilis və Rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla 10 səhfədən az olmamalıdır. Elektron ünvanı: nazimxx@yahoo.com; n.hajiyev@aseu.az .

3. Məqalənin xülasəsi 200-250 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.

4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 14 şriftilə yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm) boşluq buraxılmalıdır.

7. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidirlər.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəsis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.




AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ